DÜNYA XƏBƏRLƏRİ

Rusiya və Türkiyə qaz təchizatı müqavilələrini üç il uzadıb

Noyabr 27, 2026



Vladimir Putin Rəcəb Tayyib Ərdoğan 2020-ci ildə "Türk axını" qaz kəmərinin açılış mərasimində.

Rusiyanın "Qazprom" və Türkiyənin BOTAŞ dövlət enerji şirkətləri qaz təchizatı müqavilələrinin müddətini üç il uzadıblar. Bu barədə yanvarın 27-də Rusiya baş nazirinin müavini **Aleksandr Novak** məlumat verib.

Türkiyə son illər Rusiyanın boru kəmərləri ilə nəql etdiyi qazın ən böyük alıcılarından birinə çevrilib. Bu, Ukraynadakı müharibənin Moskvanın Avropa İttifaqı ilə ticarət və siyasi əlaqələrini pozması fonunda baş verib.

Rusiya Türkiyəyə Qara dənizdən keçən "Mavi axın" və "Türk axını" boru kəmərləri vasitəsilə qaz ötürür. Qazın bir hissəsi regional boru kəmərləri ilə Cənubi, Mərkəzi və Şərqi Avropaya daşınır.

Novak müqavilələrdə nəzərdə tutulan qaz həcminin dəyişmədiyini bildirib. O, Rusiyanın ən böyük mayeləşdirilmiş təbii qaz (LNG) istehsalçısı olan "Novatek"in yanvardan Türkiyəyə LNG tədarükü üçün müqavilə imzaladığını da vurğulayıb.

Türkiyə iri təbii qaz bazarlarından biridir və illik təxminən 55 milyard kubmetr qaz tələbatının demək olar ki, hamısını idxal hesabına ödəyir. Son illər istehlakın azaldığı bildirilir.

Rusiya isə Türkiyənin ən böyük qaz təchizatçısıdır və ölkənin qaz idxalının azı üçdə birini təmin edir.

Ötən il Rusiyadan 21 milyard kubmetr qaz idxal olunub. Bu ilin yanvar-sentyabr aylarında isə idxalın həcmi 12 milyard kubmetrə bərabər olub ki, bu da 2025-ci ilin eyni dövrü ilə müqayisədə 24 faiz azdır.

Novak həmçinin bildirib ki, 2026-cı ilin əvvəlindən Rusiya Türkiyəyə əsasən dizel olmaqla 20 milyon tondan çox yanacaq göndərib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur